## AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASI NƏQLİYYAT NAZİRLİYİNİN QƏRARI* |
| Qəbul edildiyi tarix | *06.08.2014* |
| Qeydiyyat nömrəsi | *11/Q* |
| Adı | *“Avtonəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələrində və texniki-təmir stansiyalarında normativ hüquqi aktların tələblərinə riayət edilməsinə nəzarət Qaydaları”nın ləğv edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *08.08.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *180.010.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201408060011* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *07.08.2014* |

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli, 955 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli, 880 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 14.10-cu bəndini rəhbər tutaraq

**qərara alıram:**

1. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2007-ci il 03 avqust tarixli, 86/Ü nömrəli Əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 2007-ci il 15 avqust tarixli, 3353 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış “Avtonəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələrində və texniki-təmir stansiyalarında normativ hüquqi aktların tələblərinə riayət edilməsinə nəzarət Qaydaları” ləğv edilsin.

2. Hüquq şöbəsinə (Aydın Süleymanlı) tapşırılsın ki, bu qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Bu qərarın icrasına nəzarət Nazir müavini Musa Pənahova həvalə edilsin.

Nazir Ziya Məmmədov